**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNİVERSİTETİ**

# “AZƏRBAYCAN DİLİ (5706.01)”

*ixtisası üzrə doktorantura pilləsində*
*İxtisas imtahanı proqramı*

## PROQRAM

**Bakı – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN UNİVERSİTETİ**

---

**"AZƏRBAYCAN DİLİ (5706.01)"***ixtisası üzrə*
*doktorantura pilləsində*
*İxtisas imtahanı proqramı*

# PROQRAM

*Azərbaycan Respublikası Təhsil Nazirliyi*
*Azərbaycan Universitetinin*
*Humanitar fənlər fakültəsinin Elmi Şurasının*
*31.03.2021-ci il tarixli (protokol №29 )*
*iclasında təsdiq edilmişdir.*

**Bakı – 2021**

**Tərtib edən:** **Lalə Əliquliyeva**
*filologiya üzrə fəlsəfə doktoru,dosent*

**Redaktoru:** **Ülviyyə Rəhimova**
*filologiya elmləri doktoru, professor*

**Rəyçilər:** **Samirə Məmmədova**
*dosent*
**Sevda Rzayeva**
*dosent*

**Proqramın aktuallığı.** Müasir Azərbaycan ədəbi dili ümumxalq dilinin ən yüksək mərhələsi kimi filoloqdan yüksək peşəkarlıq səriştəsi tələb edir. Bu baxımdan fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün nəzərdə tutulmuş Azərbaycan dili ixtisası üzrə imtahan proqramı tədqiqatçının nəzəri və praktik hazırlığını müəyyənləşdirməyə xidmət edir. Proqram baza tədris proqramları əsasında işlənib və doktorantların Azərbaycan dilçiliyinin mühüm problemlərini, müasir dilçiliyin qarşısında duran nəzəri-metodoloji məsələləri haqqında biliklərin müəyyənləşdirilməsini nəzərdə tutur. Proqram Azərbaycan dilçiliyi üzrə yüksək ixtisaslı mütəxəssis hazırlığının nəzəri məzmununu və gələcək elmi-tədqiqat və pedaqoji fəaliyyətdə tətbiqi üçün zəruri olacaq bilik, bacarıq və vərdişlərin sistemli məcmusunu ehtiva edir.

**Proqramın konsepsiyası** elmi tədqiqatların və ali təhsilli kadr hazırlığının dinamik dəyişkənliyi şəraitində elmi-tədqiqat, təhsil və mədəniyyət sahələrində innovativ fəaliyyətə qabil olan mütəxəssis hazırlığı tələbinə əsaslanıb və müvafiq ixtisas üzrə peşəkar elmi və pedaqoji fəaliyyət üçün zəruri olan aşağıdakı **kompetensiyaların** formalaşmasına, bilik və bacarıqların aşılanmasına yönəlib:

- Müasir Azərbaycan dili elminin nəzəri və metodoloji əsaslarının dərindən və sistemli öyrənilməsi;
- Dilçiliyin tipoloji özünəməxsusluğunun və inkişaf qanunauyğunluqlarının mənimsənilməsi;
- Müasir Azərbaycan dili sahəsində müasir elmi nəticələrin tənqidi təhlili və qiymətləndirilməsi qabiliyyəti;
- elmi-nəzəri tədqiqat və təcrübi məsələlərin həllinə müstəqil yanaşma, yeni ideyaların generasiyası qabiliyyəti;

- Müasir Azərbaycan dili tədqiqatında sistemlilik və kompleks yanaşma qabiliyyəti, fənlərarası əlaqələr kontekstində filoloji və kulturoloji aspektli tədqiqat bacarığı;
- özünütəhlil, elmi-nəzəri və pedaqoji fəaliyyətin planlaşdırılması və peşəkar inkişafın təşkili qabiliyyəti;
- Müasir Azərbaycan dili üzrə tədqiqatlarda elmi-fəlsəfi dünyagörüşü və universal nəzəri-metodoloji meyarlara əsaslanmaqla, müasir tədqiqat metodlarından və kommunikasiya texnologiyalarından istifadə bacarığı;
- araşdırılan materialın və elmi məqsədin səciyyəsinə uyğun tədqiqat metodunun seçilməsi və ya işlənməsi bacarığı;
- ali təhsil müəssisələrində müvafiq sahə üzrə pedaqoji fəaliyyət, tələbələrin elmi yaradıcılığının təşkili səriştəsi;
- elmi-tədqiqat layihələrinin, kollektiv araşdırmaların planlaşdırılması və icrası vərdişləri, müasir elmi paradiqmada fəaliyyət, inteqrasiya və tədqiqatın aktuallaşdırılması qabiliyyəti.

***Azərbaycan dilinin fonetikası.*** Azərbaycan dilinin fonetik xüsusiyyətləri haqqında M.Kazımbəyin tədqiqatları - ərəb qrafikasının hərflər sistemində bir işarənin iki və ya dörd formada işlənməsi, birdən artıq səs ifadə etmə imkanlarının təsiri ilə Azərbaycan dilinin fonetik sistemi haqqında məlumatın dərsliklərə salınması tələbatını yaranması. Yeni dərsliklərə Azərbaycan dilinin fonetikası haqqında məlumat daxil etmək zərurəti. 1920-ci ildən sonra Azərbaycan dilinin «sərf- nəhv» və ya «qrammer» kitablarına fonetika haqqında məlumatın salınmağa başlanması.

Azərbaycan dilinin fonetik quruluşu tarixi inkişafın məhsulu kimi. Azərbaycan dili fonetik quruluşunun əsas

xüsusiyyətləri. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan dilinin fonetikası məsələləri ilə elmi şəkildə məşğul olan ilk dilçi B.Çobanzadə. Onun «Türk-tatar lisaniyyətinə mədxəl» və «Türk dili-evdə texnikum» əsərlərində, xüsusən ikinci əsərdə fonetikanın praktik məsələlərinə, məsələn, bu və ya digər səsin tələffuz məxrəci məsələsinə geniş yer verilməsi. B.Çobanzadənin, Ə.M.Dəmirçizadənin tədqiqatlarında danışıq səslərinin təsnifi və onun prinsipləri. M.Hüseynzadənin «Müasir Azərbaycan dili» kitabının ilk - 1954-cü il nəşrində Azərbaycan dilinin fonetikası və leksikası məsələləri. Bu kitabda sait səslərin təsnif prinsipləri.

XX əsr Avropa dilçiliyində fonetikaya diferensial yanaşma. Praqa dilçilik məktəbinin nümayəndəsi N.S.Trubetskoy yaradıcılığında fonetika və fonologiya, Azərbaycan dilçiliyində isə fonetikanın elmi araşdırılması. 1950-ci ildə «Pravda» qəzetində keçirilmiş dilçilik müzakirələri. Müasir Azərbaycan dilinin fonetikası və fonemlər sistemi 1950-ci ildən sonra xüsusi tədqiqat obyekti kimi. Azərbaycan dilçiliyində fonetika məsələrinə həsr edilmiş, o cümlədən Ə.M.Dəmirçizadənin «Müasir Azərbaycan dili (fonetika, orfoepiya, orfoqrafiya)», «Azərbaycan dilinin fonemlər sistemi» və «Azərbaycan dilinin fonetikası» adlı elmi- tədqiqat əsərləri. Müasir Azərbaycan dili sait fonemlərinin əvəzlənməsi və şəkilçilər.

Müasir Azərbaycan dili samit fonemlərinin əvəzlənmələri, assimilyasiya hadisəsinin müxtəlif növləri.

A.Axundovun «Azərbaycan dilinin fonemlər sistemi», «Azərbaycan dilinin tarixi fonetikası» adlı əsərləri.

Səsin ictimai mahiyyəti. Danışıq səslərinin akustik və fizioloji xüsusiyyətləri. Nitq aparatı. Danışıq üzvləri (aşağı, orta, yuxarı üzvlər) və danışıq səslərinin yaranmasında onların rolu.

Danışıq səsi və fonem. Fonemin əsas əlamətləri. Azərbaycan dilində fonemi müəyyənləşdirmək üsulları. Azərbaycan dilinin fonemlər sistemi. Danışıq səslərinin təsnifi meyarları. Azərbaycan dilində danışıq səslərinin təsnifi. Seqment və superseqment vahidlər.

Azərbaycan dilinin saitlər sistemi. Azərbaycan dili saitlərinin təsnifi prinsipləri (dilin üfüqi vəziyyətinə görə, dilin şaquli vəziyyətinə görə, dodaqların vəziyyətinə görə, məxrəc sabitliyinə görə, kəmiyyətə görə, gərginliyə görə). Azərbaycan dili saitlərinin əsas xüsusiyyətləri. Azərbaycan dilində uzun saitlər. Fonoloji cəhətdən uzun saitlərin qrupları. Uzun saitlərin qısa qarşılıqları. Fərqləndirici əlaməti olan uzun saitlər.

Azərbaycan ədəbi dilinin samitlər sistemi. Azərbaycan dili samitlərinin təsnifi prinsipləri (əmələgəlmə yerinə görə, əmələgəlmə üsuluna görə, səs tellərinin vəziyyətinə görə, yumşaq damağın vəziyyətinə görə). Azərbaycan dili samitlərinin əsas xüsusiyyətləri.

Azərbaycan dilində fonetik hadisə və qanunlar, əvəzləmələr. Azərbaycan dili sait və samitlərinin etimoloji təhlili. Fonem tərkibi uzunmüddətli tarixi inkişafın məhsulu kimi. Azərbaycan dilində həm məhdud dairədə, həm də heca ilə bağlı özünü göstərən fonetik hadisələr.

Türk dillərində ahəng qanunu ilə bağlı elmi mübahisələr. B.Çobanzadə, M.Hüseynzadə, A.Qurbanov və A.Axundovun Azərbaycan dilində ahəng qanunu ilə bağlı konsepsiyaları.

***Heca.*** Azərbaycan dilində heca (saf və qovuşuq hecalar) və onun növləri. Heca tipləri. Heca və ritmik bölgü. Azərbaycan dilində ən çox işlənən heca tipləri. Heca tərkibindəki səsin (sait və ya samitin) keyfiyyətinə görə hecalar. Azərbaycan dilinin hecalanma meyarı. Heca növlərinin dəyişkənliyi.

***Vurğu.*** Azərbaycan dilində vurğunun xüsusiyyətləri. Vurğunun növləri: heca vurğusu, məntiqi vurğu, həyəcanlı vurğu. Azərbaycan dilində bəzi şəkilçilərin vurğu qəbul etmədiyi hallar.

***Azərbaycan dilinin qrafikası.*** Yazı və onun ictimai mahiyyəti. Yazının mənşəyi və inkişaf tarixi. Yazının tipləri (piktoqrafik, ideoqrafık, silloqrafık, fonoqrafik) haqqında məlumat. Azərbaycan yazısı. Müasir Azərbaycan dilinin qrafik sistemi. Azərbaycan dili qrafikasının xüsusiyyətləri. Əlifba və qrafika.

***Əlifba.*** Azərbaycan əlifbasının tarixən keçdiyi mərhələlər: ərəb əlifbasından istifadə; latın qrafikalı əlifbadan istifadə; rus əlifbası əsasında tərtib olunmuş əlifbadan istifadə. Latın qrafikası əsasında tərtib olunmuş müasir Azərbaycan əlifbası və onun xüsusiyyətləri.

**Azərbaycan dilinin orfoqrafiyası.** Orfoqrafiya haqqında məlumat. Orfoqrafiyaya verilən başlıca tələblər. Azərbaycan dili orfoqrafiyasının əsas prinsipləri: fonetik prinsip; morfoloji prinsip; tarixi-ənənəvi prinsip. Azərbaycan orfoqrafiyasının tarixi inkişaf mərhələləri .Müasir Azərbaycan dili orfoqrafiyasının xüsusiyyətləri. Orfoqrafiyanın dilin qrammatik quruluşundan asılılığı. Bəzi işarələrin (nöqtə, defis və s.) orfoqrafik mahiyyəti haqqında məlumat. Böyük və kiçik hərflərin orfoqrafik mahiyyəti. Müasir Azərbaycan dilinin

mühüm orfoqrafik qaydaları: səslərin hərflərlə ifadəsi ilə əlaqədar qaydalar; sözlərin bitişik, yarımbitişik və ayrı yazılması ilə əlaqədar qaydalar; yazıda böyük hərflərin işlədilməsi ilə əlaqədar qaydalar; sözlərin sətirdən sətrə keçirilməsi ilə əlaqədar qaydalar; mürəkkəb ixtisar və qısaltmaların yazılış qaydaları.

***Azərbaycan dilinin orfoepiyası.*** Orfoepiya və orfofoniya haqqında məlumat. Tələffüz və orfoepiya. Tələffüz üsulları. Ədəbi tələffüzün mənbələri haqqında. Tələffüz şəraiti. Azərbaycan dili orfoepiyasının prinsipləri (tələffüzdə asanlıq, zəriflik, orfoqrafik qaydalara maksimum yaxınlıq və s.). Ədəbi tələffüzün formalaşmasında orfoepiyanın yeri. Azərbaycan dili orfoepiyasının başlıca qaydaları. a) sabitlərin tələffüzü ilə əlaqədar qaydalar; b) samitlərin tələffüzü ilə əlaqədar qaydalar; c) bəzi qrammatik formaların tələffüzü ilə əlaqədar qaydalar; mürəkkəb ixtisar və qısaltmaların tələffüzü. Orfoepik tələffüzün məqam və şəraiti haqqında: lüğəvi, qrafik və qrammatik şərait. Ədəbi tələffüzün pozulma səbəbləri. Orfoqrafiya və orfoepiyanın əlaqəsi. Orfoepik lüğətlərin hazırlanması qayda və prinsipləri.

***Azərbaycan dilinin leksikologiyası.*** Azərbaycan dilinin leksikasının araşdırılması. Azərbaycanda sovet dövründə leksikologiyanın araşdırılması, S.Ə.Cəfərovun «Adlar və onları düzəldən şəkilçilər», «Azərbaycan dilinin leksikası» əsərləri. Semasiologiya və sözyaradıcılığı məsələlərinin nəzərdən keçirilməsi. «Azərbaycan dilində söz yaradıcılığı» adlı əsəri. leksikologiya məsələlərindən əlavə, semasiologiya, frazeologiya, leksikoqrafıya və söz yaradıcılığı problemlərinin təhlili. söz və onun mahiyyəti, forma və məzmununa görə söz qrupları, mənşəyinə görə söz qrupları, dilin əsas lüğət fondu və

lüğət tərkibi məsələsi, Azərbaycan dilinin semasiologiyası, frazeologiyası və leksikoqrafiyası və b. məsələlərin bu əsərdə təhlili. Müasir Azərbaycan dilində söz yaradıcılığı problemləri. Müasir Azərbaycan dilinin sözdüzəldici şəkilçilərinin mürəkkəb sözlər komponentlərinin mənşəyinə görə qruplaşdırılması, təhlili.

Müasir Azərbaycan dilinin leksikasını araşdırmaq sahəsində H.Ə.Həsənovun xidmətləri. Onun semasiologiya, lüğətçilik, frazeologiya, nitq mədəniyyəti və üslubiyyat və s. məsələlərə həsr etdiyi əsərlər. Onun Azərbaycan dilinin leksikologiyası məsələlərinin tədqiqinə həsr etdiyi əsərləri. «Söz və adların yaranması», "Müasir Azərbaycan dilinin leksikası».

Leksikologiya, onun mövzusu, məqsəd və vəzifələri. Leksikologiyanın növləri, tərkib hissələri. Söz leksikanın əsas vahidi kimi. Müasir Azərbaycan dilinin lüğət tərkibi-leksikası. Müasir Azərbaycan dilinin leksikası tarixi inkişafın məhsulu kimi.

Müasir Azərbaycan ədəbi dilinin mənşə etibarilə lüğət tərkibi. Lüğət tərkibinin türk mənşəli və başqa dillərə (ərəb, fars, rus və s.) məxsus sözlərdən ibarət olması. Türk dilləri ilə ortaq olan sözlər. Azərbaycan dilinə məxsus sözlərin xüsusiyyətləri. Alınma söz anlayışı. Söz alınmasının forma və yolları. Azərbaycan dili lüğət tərkibinin alınma sözlər hesabına zənginləşməsi: a) ərəb dilindən alınma sözlər; b) fars mənşəli sözlər; c) rus dilindən alınmış sözlərlə; ç) Avropa mənşəli alınmalar; d) Qafqaz dillərindən və digər dillərdən alınmalar. e) Beynəlmiləl sözlər. Alınma sözlərin xüsusiyyətləri. Alınma sözlərin mənimsənilməsi problemləri. Mənimsənilmənin çətinlikləri. a) heç bir dəyişiklik edilmədən dilimizdə işlənən

sözlər; b) müəyyən (fonetik, semantik və qrammatik) dəyişiklik edilərək dilimizdə işlənən sözlər.

Azərbaycan ədəbi dilinin əsas lüğət fondu. Aktiv və passiv leksika. İstifadə dairəsinə görə müasir Azərbaycan dilinin leksikası. Ümumişlək və ümumişlək olmayan sözlər. Ümumişlək olmayan sözlərin qrupları: dialektizmlər, peşə-sənət leksikası, terminlər, jarqon leksikası və arqotizmlər. Vulqar sözlər və varvarizmlər. Evfemizmlər. Neologizmlər (növləri və əmələgəlmə yolları). Köhnəlmiş sözlər. Anaxranizmlər. Köhnəlmiş sözlərin növləri (arxaizm və tarixizmlər). Leksik və semantik arxaizmlər. Azərbaycan dili lüğət tərkibinin zənginləşmə yolları. Azərbaycan dilinin terminologiyası. Termin və sözün sərhədləri. Terminlərin əmələ gəlmə yolları.

***Azərbaycan dilinin semasiologiyası.*** Sözün mənası problemi. Sözün leksik və qrammatik mənası. İlkin və törəmə mənalar. Sözlərin tək və çoxmənalılığı. Çoxmənalılığın əmələgəlmə səbəbləri və yolları. Çoxmənalılıq və omonimlik. Sözün həqiqi və məcazi mənası. Metafora, metonimiya, sinekdoxa. Müasir Azərbaycan dilində sözlərin məna qrupları. Omonimlər. Leksik və qrammatik omonimlər. Omonimlərin mənşəcə növləri. Omonimlərin çoxmənalı sözlərdən fərqi. Omoqraflar, omofonlar, omoformlar və leksik-qrammatik omonimlər. Paronimlər. Sinonimlik anlayışı və sinonim sözlər. Sinonimlərin əmələgəlmə yolları. Mütləq və nisbi sinonimlər. Sinonim dubletlər. Sinonimik cərgə. Sinonimlərin üslubi rolu. Antonimlər. Antonimlərin tərkibi və quruluşu. Antonimlərin məna qrupları. Tam və nisbi antonimlər. Antonimlərin müəyyən nitq hissələri ilə bağlılığı. Antonimlərin bədii-üslubi

rolu. Azərbaycan dilinin onomastikası. Antroponim və toponimlər (oykonimlər, oronimlər və hidronimlər).

***Müasir Azərbaycan dilinin frazeologiyası.*** A.Qurbanovun «Müasir Azərbaycan dilinin frazeologiyası», H.Həsənovun «Azərbaycan dilinin frazeologiyası. Metodik göstəriş», N.Məmmədvoun A.Axundovla birlikdə nəşr etdirdikləri «Dilçiliyə giriş» əsərlərində Azərbaycan dilinin frazeologiyası haqqında məlumatlar. K.Əliyevin «Bədii ədəbiyyatda frazeologiyanın üslubi xüsusiyyətləri» və N.Rəhimzadənin «Azərbaycan dilində idiomatik ifadələr» adlı əsərləri. Azərbaycan dilinin frazeologiyasının araşdırılması sahəsində H.A.Bayramovun xidmətləri. Azərbaycan dilinin frazeologiyasına dair lüğətlər. Frazeologiya anlayışı. Dilin lüğət tərkibində frazeoloji vahidlərin yeri. Frazeoloji vahidlərin mürəkkəb sözlərdən və sərbəst birləşmələrdən fərqi. Frazeoloji vahidlərin növləri. Frazeoloji qovuşmalar, frazeoloji birləşmələr, frazeoloji uyuşmalar. Frazeoloji vahidlərin əmələgəlmə yolları. Frazeoloji vahidlərin tipləri: ismi və feli frazeoloji vahidlər. Frazeoloji vahidlərin məna qrupları: çoxmənalı, omonim, sinonim frazeoloji vahidlər və frazeoloji variantlar, antonim frazeoloji vahidlər. Frazeoloji ifadə və ibarələr. Hikmətli sözlər, atalar sözləri və məsələlərin frazeologiyada yeri. Frazeoloji vahidlərin nitqdə rolu və üslubi-praqmatik imkanları.

***Azərbaycan dilinin onomalogiyası.*** Onomastika anlayışı. Azərbaycan dilinin onomastik sistemi. Onomastik vahidlərin növləri: antroponimlər, etnonimlər, toponimlər, hidronimlər, zoonimlər, kosmonimlər və s. Onomastik vahidlərin yaranma imkanları. Onomastik vahidlərin üslubi-praqmatik imkanları. Afad Qurbanov Azərbaycan dilçiliyində

onomalogiya sahəsinin banisi kimi. «Poetik onomastika», «Ümümtürk antroponimiyası tarixi», bunlardan başqa türk dillərinin tədqiqi əsasında yazdığı «Dünyada türk adları» «Türk antroponimlərinin inkişafı dövrləri», «Qədim türk adları», «Ortaq müsəlman adları» adlı onomastik aspektdən araşdırmaları. H.Həsənovun bu mövzuda «Söz və adların yaranması, «Söz və ad», «Azərbaycan şəxs adlarının lüğəti», «Azərbaycan şəxs adlarının izahlı-etimoloji lüğəti» və «Adlar tarixin milli nişanəsi kimi» əsərləri. Müəllifin adların əmələ gəlməsi, əşya və adın münasibəti, adların araşdırılması tarixi, ad sistemi, ümumi və xüsusi adlar, advermə və adseçmə, əsas adlar kateqoriyası, şəxs adları, adların mənşəyi, türk mənşəli adlar, adların semantikası, müştərək və ya paralel adlar, ata adı, familiya, ləqəblər, təxəllüslər, titul və fəxri adlar və s. məsələlərə münasibəti.

***Azərbaycan dilçiliyində leksikoqrafiya.*** Azərbaycan dilinə aidliyi olan ilk lüğətlər (XIV əsr) Azərbaycan dilçiliyinin leksikoqrafiya sahəsindəki fəaliyyəti. S. M.Qənizadənin təxminən 10 min sözlüyü olan «Rusca-türkcə lüğət» əsəri, habelə təbiətşünaslıq, coğrafiya və riyaziyyata aid terminlər lüğətləri. Ruhulla Axundovun redaktorluğu ilə Azərbaycanda ilk dəfə böyük həcmli - 50 min sözü əhatə edən iki cildlik «Rusca-azərbaycanca lüğət»in nəşri. Azərbaycan dilinin ilk orfoqrafiya lüğəti. Terminoloji lüğətlərin nəşri. SSRİ EA Azərbaycan filialının nəzdində xüsusi lüğətçilik institutunun yaradılması. H.N.Hüseynovun redaktorluğu ilə Azərbaycanda ilk «Azərbaycanca-rusca lüğət»in nəşri. Azərbaycanda ilk dəfə üçdilli lüğətin nəşri. «Azərbaycan dilinin dialektoloji lüğəti» (1964) adlı əsərin nəşr edilməsi. Azərbaycan leksikoqrafıyasındakı (eləcə də dialektoqrafıyasındakı)

əlamətdar hadisələrdən biri kimi. A.Axundovun «Azərbaycan dilinin izahlı lüğəti» əsəri.

«Azərbaycan Sovet Ensiklopediyası» ensiklopedik lüğətinin nəşr olunması. Azərbaycan sovet dilçiliyi. Azərbaycan lüğətçiliyi. Lüğətlərin quruluşu və tərtibi prinsipləri. Filoloji lüğətlərin növləri. Tərcümə lüğətləri.

***Azərbaycan dilində söz yaradıcılığı (derivatologiya).***Azərbaycan dilində söz yaradıcılığının yolları: a) leksik yolla, b) morfoloji yolla, c) sintaktik yolla.

***Azərbaycan dilinin qrammatikası.*** Qrammatikanın əsas xüsusiyyətləri. Qrammatik kateqoriya qrammatikanın mühüm vahidi kimi. Qrammatikanın növləri: morfologiya, sintaksis. Azərbaycan dilçiliyində qrammatika ənənələri, Mirzə Kazımbəyin fəaliyyəti. Azərbaycan dilçilərinin Azərbaycan dilinin qrammatik quruluşunun tədqiqi sahəsindəki nailiyyətləri. Müasir Azərbaycan dilinin qrammatik quruluşu. iki cildilk «Azərbaycan dilinin qramamtikası» və Bakı Dövlət universitetinin Azərbaycan dili ixtisası üzrə kollektivinin (M.Hüseynzadə və başqaları) hazırladığı üç hissədən ibarət (morfologiya və iki kitabdan ibarət olan sintaksis) «Müasir Azərbaycan dili» adlı əsərlərdə sinxron və təsviri aspektdə şərh olunması. Azərbaycan dilçiliyində qrammatika nəzəriyyəsinin problemləri və onların həlli prinsipləri. Nitq hissələrinin təsnifi ümumiyyətlə türkologiyada, o cümlədən, Azərbaycan dilçiliyində mübahisəli məsələ kimi. Morfologiyanın əsas vahidləri.

Sözün tərkibi. Nitq hissələri anlayışı. Nitq hissələrinin bölgüsü. İsim. İsmin qrammatik kateqoriyaları. Sifət. Dərəcələri. Say. Lüğəvi məna növləri. Əvəzlik: qrammatik mənası, morfoloji əlaməti və sintaktik vəzifəsi. Fel.

Kateqoriyaları. Şəkilləri. Felin təsriflənməyən formaları. Zərf: mənaca növləri. Köməkçi nitq hissələri. Xüsusi nitq hissələri.

***Azərbaycan dilinin sintaksisi.*** XX əsrin əvvəllərində, Azərbaycanda sintaksisin araşdırılmasına diqqətin artırılması, bu sahədə aparılan araşdırmalar, sintaksisin hüdudlarının müəyyənləşdirilməsi.

B. Çobanzadə və F.Ağazadənin 1928-ci ildə nəşr edilmiş «Türk qrameri» əsəri. 1947-ci ildə Ə.M.Dəmirçizadənin «Müasir Azərbaycan dili. Cümlə üzvləri» kitabı. Müəlilfin cümlə üzvlərinə münasibəti. M.Hüseynzadənin 1953-cü ildən başalyaraq nəşr etdirdiyi təyini söz birləşmələri haqqında silsilə məqalələri, 1957-ci ildə nəşr etdirdiyi «Müasir Azərbaycan dilində təktərəfli və mürəkkəb təyini söz birləşmələri» kitabı. XX yüzililyin 60-70-ci illərində Azərbaycan dilinin elmi sintaksisinin yaranması və formalaşması.

Azərbaycan dilçiliyində təyini söz birləşmələri *Təyini söz birləşmələri* termininin statusunu genişləndirilməsi, Y.Seyidovun «Azərbaycan dilində söz birləşmələri» adlı böyük həcmli monoqrafıyasında söz birləşmələrinin yeni təyinatı. «Mətn linqvistikası» anlayışının yeni problem kimi Azərbaycan dilçiliyində öz əksini tapması. Q.Ş.Kazımovun «Müasir Azərbaycan dili» (sintaksis) adlı əsərində mətn və onun daxili vahidləri, mətnin komponentləri və sərhədlərinin müəyyənləşdirilməsi, aktual üzvlənmə, sintaktik bütövlərin qrammatik semantikası, komponentlər arasında mətniqi-sintaktik əlaqə üsulları və komponentləri əlaqələrindən vasitələr kimi məsələlərin tədqiqi. Bədii mətnin təhlil üsulları. Sintaktik əlaqələr. Söz birləşmələri. Cümlə. Sadə cümlə. Cümlə üzvləri. Cümlənin həmcins üzvləri. Əlavələr. Cümlə

üzvlərinin xüsusiləşməsi. Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər. Təktərkibli sadə cümlələr. Bütün və yarımçıq cümlələr. Üzvlənməyən sadə cümlələr. Mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlə. Tabeli mürəkkəb cümlə. Qarışıq tipli tabesiz və tabeli mürəkkəb cümlələr.

***Azərbaycan dialektologiyası.*** Azərbaycan dialektologiyasının əsasları. Azərbaycan dilinin dialektoloji atlası. Azərbaycanda ilk dialektolji tədqiqatlar. Ekpedisiya yolu ilə Azərbaycan dialekt və şivələrinin tədqiqi. Azərbaycan dialekt və şivələrinin təsnifi. Dialektologiyada obyekt seçmə və işləmə obyektləri. Azərbaycan dili dialektlərinin yaranması və inkişafı. Dialekt fonetikası, morfologiyası, leksikası və sintaksisi.

M.Ş.Şirəliyevin Azərbaycan dilinin dialekt və şivələri üzərində apardığı elmi-tədqiqat işləri

## Ədəbiyyat


1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, “Maarif”, 1974.
2. Azərbaycan dilinin terminologiyası. Bakı, Elm, 2011, 380 s.
3. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı, “Maarif”, 1986.
4. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Fonetika. Bakı, “Maarif”, 1982.
5. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı, 1987.
6. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkülü və inkişafı. Bakı, Bakı Universiteti, 1999, 354 s.
7. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, “Maarif”, 1984.
8. Həsənov H. Azərbaycan dilinin leksikası. Bakı, 1989.
9. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, “Elm və təhsil”, 2006.
10. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, “Elm və təhsil”, 2008.
11. Müasir Azərbaycan dili. EA, I hissə, Bakı, 1978
12. Müasir Azərbaycan dili. EA, II hissə, Bakı, 1980
13. Müasir Azərbaycan dili. EA, III hissə, Bakı, 1981
14. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. (Bakı, Elm, 1973).
15. S.Sadıqova. Azərbaycan dili terminlogiyasının nəzəri problemləri. Bakı, Elm, 2002. 230 s.

16. Şirəliyev M. Azərbaycan dialektologiyasın əsasları. Bakı, Şərq-Qərb, 2008. 416 s.

Yığıma verilmişdir: 09.01.2021
Çapa hazırlanmışdır: 04.02.2021
Kağız formatı 60x84  1/16
Ofset üsulu ilə çap edilmişdir.
Şərti ç.v. 1.5